# "Heydər Əliyev İli" ulu öndərə ümumxalq məhəbbətinin ifadəsidir

***"Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 100-cü ilinin tamam olması şərəfinə qarşıdakı ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi xəbəri cəmiyyətin bütün təbəqələrində hədsiz sevinclə qarşılanmışdır.***



Ötən günlərdə siyasi partiya və vətəndaş cəmiyyəti qurumlarından, ayrı-ayrı kollektivlərdən aldığımız xəbərlərdə, redaksiyamıza ünvanlanan zənglərdə, göndərilən məktub və rəylərdə bu qərar dünya miqyaslı siyasət və dövlət xadiminin dövlətçilik ənənələrimizin dirçəldilməsi, yaşadılması və bərpa edilməsi sahəsində misilsiz xidmətlərinə, çağdaş tariximizdə tutduğu müstəsna mövqeyinə xalqımızın və dövlətimizin qədirbilən münasibətinin növbəti parlaq təcəssümü kimi qiymətləndirilir.

Prezident sərəncamının doğurduğu böyük məmnunluğun əks-sədası olaraq bu açıqlama, rəy və mülahizələrdə bildirilir ki, sənəddə dahi şəxsiyyətin müstəqil Azərbaycan Respublikasının bugünkü tərəqqisində, ən əsası, qalib ölkə kimi beynəlxalq aləmdə tanınmasında rolu və xidmətləri sevgi-sayğı ilə əksini tapmışdır. Qeyd edilir ki, ulu öndərin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri hər an, hər gün gözümüzün önündədir. Bugünkü Azərbaycanın reallıqları Heydər Əliyev siyasətinin təntənəsidir. 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edilməsi isə bu dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin daha dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradacaq.

Doğrudan da, ümummilli lider Heydər Əliyevin fəaliyyəti, ideya-siyasi və idarəçilik irsi çox zəngindir. Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir. Hələ bundan sonra neçə-neçə nəsillər bu məktəbdən bəhrələnəcək, Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcək. Böyük rəhbərin istər Azərbaycanda hakimiyyətinin birinci mərhələsi (1969-1982), istər Naxçıvan dövrü (1990-1993), istərsə də müstəqilliyimizin bərpasından sonrakı illəri ayrı-ayrılıqda çağdaş siyasi tariximizin parlaq və zəngin səhifələrini təşkil edir. Ulu öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə əzəmətli bir abidə ucaldıb. O abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir. Heydər Əliyev və Azərbaycan məfhumlarının birgə ifadə olunması xalqımızın qüdrətli oğlunun bənzərsiz həyatının və titanik fəaliyyətinin aydın mənzərəsini yaradır.

**Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə isə sərəncamla bağlı qəzetimizə müsahibəsində aşağıdakıları söylədi:**

– 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında dövlət başçısının sərəncamında da vurğulandığı kimi, ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir: "Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan ulu öndər Heydər Əliyevin həyat amalının təntənəsidir". Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün böyük idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Ulu öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soykökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan ulu öndər Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Ümummilli lider bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş, respublikamızın malik olduğu bütün imkanlardan onun inkişafı üçün istifadə etmişdir. Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlayır, dövlətinə, xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin əyani təcəssümüdür.

Üzümüzə gələn 3 oktyabr ulu öndər Heydər Əliyevin 1993-cü ildə ilk dəfə müstəqil Azərbaycan dövlətinə Prezident seçildiyi gündür. Artıq həmin tarixdən bizləri 29 illik zaman ayırır. 29 ildə Azərbaycanın keçdiyi inkişaf yoluna nəzər salsaq görərik ki, hər bir addım torpağa, Vətənə bağlılığın fonunda dövlətimizin, xalqımızın gələcəyinə xidmət edən qərarlarla zəngindir. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan yenidən quruldu. Dövlətçiliyin əsasları yaradıldı. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir.

Ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında ən böyük xidmətlərindən biri 2003-cü ildə xalqa müraciətində qarşıdakı dövrdə Azərbaycanı möhkəm təməl üzərində uğurla inkişaf etdirməyə qadir ünvanı göstərməsi oldu. 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev son 19 ildə ulu öndərin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirir. Dövlətimizin qətiyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi sayəsində Heydər Əliyevin şah əsəri olan güclü Azərbaycan dövləti ərazi bütövlüyünü qorumağa qadir oldu. 44 günlük Vətən müharibəsində şanlı Zəfərimiz Azərbaycanın qarşısında yeni imkanlar yaradır.

**YAP Xətai rayon təşkilatının sədri sonda qeyd etdi ki, dahi şəxsiyyətin irsinin təbliği məqsədilə yaradılmış Heydər Əliyev Fondunun görəcəyi işlərə, gerçəkləşdirəcəyi layihələrə, önəmli hədəflərə "Heydər Əliyev İli" layiqli töhfəsini verəcək:** "Ümumiyyətlə, çoxşaxəli fəaliyyəti ilə Azərbaycan dövlətinin daha da qüdrətlənməsinə öz töhfələrini verən Heydər Əliyev Fondunun ölkə daxilində, eyni zamanda, xaricində həyata keçirdiyi layihələr ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Heydər Əliyev yolu isə bundan sonra da Azərbaycana möhtəşəm uğurlar qazandıracaq".

***Hazırladı: Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti $g 2022.- 2 oktyabr.- S.5.